

# Güneydən səslər...

"Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır". Bunu Azərbaycan Prezidenti İlham Əliyev ötən il noyabrın 11-də Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışında bəyan edib.

Dövlət başçısının bu fikri yaddaşımızı bir qədər təzələmək üçün sanki bir təkan oldu. Azərbaycanlıların daha kompakt yaşadığı Güney Azərbaycanını göz önünə gətirdik. Quzeydə hələ də yetərincə tanınmayan Güney barədə düşüncələrimizin fonunda onun ədəbiyyatını, nəsrini, poeziyasını, yazar soydaşlarımızın mücadiləsini ifadə edən nümunələri xatırladıq.

Qəzetimizdə "Güneydən səslər..." rubrikası altında Güney ədəbiyyatının, folklorunun, mədəniyyətinin, incəsənətinin ən gözəl nümunələri ilə oxucularımızı da tanış edirik.

## ÜLKƏR UCQAR



Ülkər Ucqar (Monirə Əkbərpuryan) 1985-ci ildə Təbriz şəhərində anadan olub. Burada fransız dili və ədəbiyyatı üzrə ali təhsil alıb.

2011-ci ildə Bakıda "Qanun" nəşriyyatında "Balıqçı əllərinə doğru" adlı ilk şeirlər kitabı nəşr edilib. Onun şeirlərini fərqləndirən başlıca cəhətlər: özünəxas ifadə bacarığı, mövzu çeşidinin genişliyi, Azərbaycan şifahi xalq yaradıcılığı və mifoloji qaynaqlardan faydalanmasıdır. Şeirləri Parisdə fransız dilində nəşr olunan jurnallarda dərc olunur. Fransız dilindən fars və türk dillərinə tərcümə etdiyi əsərlər Tehranda çap olunub.

Tehranın Beheşti Universitetində "Epik xəyal gücünün araşdırılmasına doğru: Roland haqqında nəğmə və Dədə Qorqud kitabı" mövzusunda (fransız dilində) doktorluq dissertasiyası müdafiə edib.

Nağıl qadın kimidir
"Getdim" de
özünü də, məni də qurtar!
Nağılı deməyincə bitməz
yerlə göy arasında
gərgin düşübən qarğayar başlayanını...

"Atdım" de
özünü də, məni də qurtar!
Nağıl yarıcan olanda
asılı qalar
bir ömür, deyəninin dalısınca sürünər,
qiyamət günü
sonunu istər...

Nağıl qadın kimidir,
unutqan gözlərini yumsan da,
tanıyar səni!
Unutqan əllərini gizləsən də,
tanıyar səni!

"Getdim" de, özünü də, məni də qurtar...
"Atdım" de, özünü də, məni də qurtar...

## QADİR CƏFƏRİ



1986-cı ildə Muğanda anadan olmuşdur. İlk və orta məktəb təhsilini bu şəhərdə başa vurduqdan sonra inşaat mühəndisliyi üzrə ali təhsilini Urmu şəhərində tamamlamışdır. Tələbəlik illərində ciddi şəkildə ədəbi yaradıcılığa başlamış və həmin illərdə, şeirləri müxtəlif dərgi, şeir antologiyaları və saytlarda çap olunmuşdur.

Ay çıxmazsa
Ay çıxmazsa,
Necə bəzənəcək bu gecə?
Səsin ay işığına calanmış.
Ay çıxmazsa
Tamarzı qalacaq səsinə gecəm.

Bu duvardakı tablolar
Ayı göstərirlər, mehriban ayı...
Səsin nədən gecikib xanım?!

Bir əlçim baxış pay versən
Bir daha pəncərədən baxmaram
Eşikdə ay əriyir...

Esmira Fuad